# QARABAĞIN SU EHTİYATI VƏ YENİ İMKANLAR

**Mehnurə Rəhimova**

*Baki Dövlət Universiteti, Amexaragimova@rambler.ru*

Qarabağ bölgəsi hər zaman zəngin su ehtiyatlarının böyük potensialı ilə fərqlənmişdir. Burada ildə təqribən 2560 mln kubmetr su ehtiyatları formalaşır. Regionun Tərtər, Bazarçay, Həkəri kimi əsas və digər kiçik çayları böyük su enerji potensialına malikdir. İşğaldan azad olunan ərazilərin su ehtiyatları təxminən 780 mln.kub metrdir.

Qarabağ çatlı vulkanik süxurların geniş yayıldığı ərazi olduğuna görə yeraltı sularla daha zəngindir və onlar nisbətən dağətəyi ərazilərdə səthə çıxaraq bulaq şəklində çayları qidalandırır. Hidrokimyəvi xüsusiyyətləri - kalsium hidrokarbonatlılığına görə onların ümumi codluğu nisbətən aşağıdır. Həm də xüsusilə yuxarı hissələrində meyllilik və sululuq çox, axın sürəti böyük olduğundan bu çaylar hidroenerji ehtiyatları ilə də zəngindir. Onların Azərbaycanın digər sahələrindəki suvarma sistemlərinə daxil olması, eyni zamanda, ərazidəki Sərsəng, Suqovuşan, Ağdamkənd, Xaçınçay və s. su anbarları ekoloji bərpa prosesinin sürətlənməsinə təkan verəcəkdir.

Regionda böyük potensiala malik olan yeraltı sular elmi cəhətdən düzgün istifadə edilərsə, yüksək səmərə verə bilər. Hesablamalara görə, işğaldan azad olmuş ərazilərdə kəhrizlər vasitəsilə 58-60 mln. kubmetr su əldə etmək mümkündür.

Regionun yeraltı su ehtiyatlarının, çay, bulaq, quyu, su tutumları şəbəkəsinin, vaxtilə mövcud olmuş kəhriz sisteminin tədqiqi, bərpası və səmərəli istifadəsi, torpaq və su (həm yerüstü, həm də yeraltı) ehtiyatlarının mikrobioloji, toksikoloji və biokimyəvi tədqiqi aparılmaqdadır.